# Xaçmazda prokurorluğun yüz illik yubileyi





Xaçmazda Azərbaycan Prokurorluğunun yüz illik yubileyinə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirdə prokurorluğun işçiləri, hüquq-inzibati orqanların rəhbərləri, rayon icra hakimiyyətinin nümayəndələri iştirak etmişlər. Yubiley tədbirini giriş sözü ilə açan **rayon prokuroru, baş ədliyyə müşaviri Elxan Əbdürrəhimov** Azərbaycan Prokurorluğunun yaranma tarixindən və ölkənin hüquq sistemində onun rolundan söhbət açdı. Qeyd etdi ki, 1918-ci il oktyabr ayının 1-də Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq orqanı yaradılmışdır. Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə elan edilmiş həmin tarix Azərbaycan prokurorluq orqanlarının yaranması və təşəkkülü tarixi idi. Məhz bu tarixi-hüquqi sənədi əsas tutaraq ümummilli lider Heydər Əliyev hər il oktyabr ayının 1-nin Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü kimi qeyd edilməsi barədə 17 iyul 1998-ci il tarixli sərəncam imzalamışdır.

Prokurorluq orqanlarının yaradılmasının 80 illik yubileyinə həsr olunmuş 28 noyabr 1998-ci il tarixli tədbirdə Heydər Əliyev dərin məzmunlu nitq söyləyərək prokurorluq işçilərinə dəyərli tövsiyələrini vermişdir. Ulu öndərin prokurorluq peşəsi ilə bağlı dediyi "Prokurorluq peşəsi ağır, çətin peşədir. Amma eyni zamanda, çox şərəfli, hörmətli peşədir. Mən arzu edirəm ki, siz həmişə bu peşəni şərəflə daşıyasınız" sözləri prokurorluq işçilərində böyük ruh yüksəkliyi və iftixar hissi yaratmaqla yanaşı, onları öz fəaliyyətlərinə daha tələbkarlıqla və məsuliyyətlə yanaşmağa səfərbər etmişdir.

Sonra **rayon prokurorunun böyük köməkçisi Tural Məhərrəmov** "Azərbaycanda prokurorluğun yaranma tarixi və inkişafı" mövzusunda məruzə etmişdir.

Tədbirdə **Milli Məclisin üzvü Eldəniz Səlimov, Xaçmaz rayon Məhkəməsinin sədri Xıdır Quliyev, rayon prokurorunun müavini Namiq Məmmədov** və başqaları çıxış edərək prokurorluğun əməkdaşlarını təbrik etmiş, onlara uğurlar arzulamışlar.

Tədbirdə iştirak edən **Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayev** öz çıxışında prokurorluğun dövlətimizin əsas sütunlarından biri kimi önəmli fəaliyyətini, demokratik dövlət quruculuğunda, sabitliyin qorunub saxlanılmasında xüsusi əməyini qeyd etmişdir. İcra başçısı prokurorluğun əməkdaşlarını öz adından və rayon ictimaiyyəti adından təbrik etmiş, onlara ən xoş arzularını bildirmişdir.

**Ziyafəddin BAYRAMOV,**
**"Respublika".**